AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİNİN AKADEMİK HEYƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ PROSEDURU

I. Ümumi müddəalar

1.1. Azərbaycan Turizm və Menecment Universitetinin akademik heyətinin təkmilləşdirilmə işinin aparılması professor-müəllim heyətinin sərişləliliyinin artırılmasını, tədrisin keyfiyyətinin yüksəldilməsini və yeni təlim metodlarından istifadə əsasında fəaliyyət göstərməsini təmin edən əsas amillərdəndir.

1.2. Azərbaycan Turizm və Menecment Universitetinin akademik heyətinin təkmilləşdirilməsinə olan ehtiyacların müəyyənləşdirilməsi Universitetin və professor-müəllim heyətinin maraqlarını özündə ehtiva edir.

1.3. Akademik heyətin təkmilləşdirilməsi ehtiyacları Universitet tərəfindən müəyyənləşdirilir, ehtiyacın yaranma səbəbləri təhlil edilir, bilik, bacarıq və vərdişlər sistemindəki boşluqlar müəyyənləşdirilir, ümumi qənaətə gəlinir və onun aradan qaldırılması istiqamətində təkmilləşdirilmə prosesi təşkil edilir.

1.4. Akademik heyətin nümayəndələri mütəmadi olaraq əmək haqları saxlanılmaqla universitetlərarası təkmilləşdirilmə mübadiləsinə yönəldilir.

1.5. Akademik heyətin təkmilləşdirilməsi prosesi nəticəsində müəllim tədris etdiyi fənn üzrə nəzəri biliklərini, metodiki iş qabiliyyətini, qabaqcıl təcrübənin öyrənilməsində yeni təlim üsullarından istifadə bacarıqlarını artırır.

1.6. Akademik heyətin təkmilləşdirilməsi prosesinin təşkili zamanı Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Azərbaycan Respublikasının Təhsil Nazirliyinin təhsil haqqında qərarları əsas götürülür.

I. Azərbaycan Turizm və Menecment Universitetinin akademik heyətinin təkmilləşdirilməsi prosedurunun qaydaları

2.1. Akademik heyətin təkmilləşdirilmə prosesinə cəlb edilməsi ATMU-da stajı 5 ildən çox olan müəllimlər üçün nəzərdə tutulur.

2.2. Universitetin ştatda olan akademik heyətinin nümayəndələri hər 5 ildə 1 dəfə ixtisası üzrə təkmilləşdirilmə kursu keçməlidir.

2.3. Akademik heyətin təkmilləşdirilmə prosesini həyata keçirən müəssisələr fakültə dekanları tərəfindən müəyyən edilir.

2.4. Hər tədris ilinin sonunda növbəti tədris ili üçün fakültələr üzrə planlaşdırılmış təkmilləşdirilmə kurslarının təqvim planı tərtib olunur.

2.5. Akademik heyətin təkmilləşdirilmə kurslarına yönləndirilməsinin təmin ediliməsi tədris ili ərzində davam etdirilir.

2.6. Professor-müəllim heyətinin təkmilləşdirmə prosesinin dəyərləndirilməsi təlimin qiymətləndirmə meyarlarına uyğun aparılır. Prosesin nəticəsi olaraq müəllimin fəaliyyətinin monitorinqi aparılır və inkişaf dinamikası izlənilir.

2.7. Akkreditasiya qaydalarına uyğun olaraq professor-müəllim heyətinin 5 il müddətinə seçilməsi zamanı akademik heyətin təkmilləşdirilmə prosesinin nəticələri dəyərləndirilərək nəzərə alınır.

2.8. Təkmilləşdirmə kursu ən azı 1 (bir) təqvim ayı müddətinə təşkil edilir.

2.9. Professor-müəllim heyətinin təkmilləşmə kursu keçəcəyi ali məktəbə gediş-gəliş xərci və orada gecələmə xərci ATMU tərəfindən ödənilir.

2.10. Təkmilləşdirmə kursunda olan müəllimin aylıq əmək haqqı tam qaydada ödənilir.

III.Təkmilləşdirmə kursunun qiymətləndirmə meyarları:

3.1.ÜMUMİ MƏLUMAT	
İŞTİRAKÇININ ADI, SOYADI, ATASININ ADI:	
İŞTİRAKÇININ VƏZİFƏSİ:	
KURSDA İŞTİRAK ETDİYİ FƏNLƏR:	
TƏKMİLLƏŞDİRMƏ KURSUNDA ONA TƏYİN OLUNMUŞ AKADEMİK MƏSLƏHƏTÇİ: (Adı,	

soyadı, atasının adı)	
TƏKMİLLƏŞDİRMƏ KURSUNUN MÜDDƏTİ:	

Tədris kursu/seminar/praktik məşğələ/video(CD,kaset) /e-learning olduğu halda:

3.2.TƏKMİLLƏŞDİRMƏNİN FAYDALILIĞI	**1 bal**	**2 bal**	**3 bal**	**4 bal**	**5 bal**
1. Fənlərə dair biliyim artdı	☐	☐	☐	☐	☐
2. Fənlərin tədrisi zamanı məzmun aydın və anlaşıqlı idi	☐	☐	☐	☐	☐
3. İstifadə olunan əyani vəsaitlər(audio və video materiallar) öyrənməni asanlaşdırırdı və tətbiq oluna bilər	☐	☐	☐	☐	☐
4. Kursun müddəti yetərli idi	☐	☐	☐	☐	☐

3.3.FƏNN MÜƏLLİMİNİN ADI, SOYADI, ATASININ ADI:	**1 bal**	**2 bal**	**3 bal**	**4 bal**	**5 bal**
1. Keçirdiyi tədris kursu/ seminar/ praktik məşğələyə hazırlıqlı idi	☐	☐	☐	☐	☐
2. Mövzu barədə məlumatlı idi və bildiklərini asanlıqla ifadə edə bilirdi	☐	☐	☐	☐	☐
3. Qrupla ünsiyyəti müsbət idi	☐	☐	☐	☐	☐
4. Vaxtdan səmərəli istifadə edirdi	☐	☐	☐	☐	☐

3.4.TƏKMİLLƏŞDİRMƏ KURSUNUN QİYMƏTLƏNDİRİLMƏSİ	**1 bal**	**2 bal**	**3 bal**	**4 bal**	**5 bal**
Ümumiyyətlə kursu necə qiymətləndirirsiniz?	☐	☐	☐	☐	☐

ÜMUMİ FİKİRLƏRİNİZ, TƏKLİFLƏRİNİZ:

İştirakçının imzası_____

Tarix: ____ _____ 20__-ci il

3.5.TƏKMİLLƏŞDİRMƏ KURSUNUN İŞ PROSESİNDƏ FAYDALILIĞININ DƏYƏRLƏNDİRİLMƏSİ: (Kursdan 2 ay sonra kafedra müdiri tərəfindən doldurulur)	
1. Təkmilləşdirmə kursunda mənimsənən biliklər gözləntiləri qarşıladı?	
2. Təkmilləşdirmə kursunun hansı faydaları oldu? Xahiş edirik, 3-4 faydasını sadalayasız	
3. Müəllimin öyrəndikləri işində necə istifadə/tətbiq edildi? Xahiş edirik, 3-4 sahəni sadalayasız.	

Qeyd: Bu formalar iştirakçı və kafedra müdiri tərəfindən doldurulur, təsdiqlənir və təhlil üçün İnsan resursları şöbəsinə təqdim olunur.

Kafedra müdirinin imzası _____

Tarix: ____ _____ 20___-ci il

İŞƏ QƏBUL ÜÇÜN SORĞU VƏRƏQƏSİ

Dil biliyiniz_____
_____
_____

Təhsiliniz _____
_____
_____
_____
_____

İxtisasınız_____

İş təcrübəniz _____
_____
_____
_____
_____

Kompüter biliklәriniz_____
_____
_____

Ad, ata adı, soyad_____

Anketin doldurulduğu tarix_____

İmza_____